"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 05 (998) | 20 fevral 2017-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən panel-müzakirədə iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunan panel-müzakirədə iştirak edib.

Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak ediblər.

Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsi üzrə tədbir keçirildi

Bu günlər rayonun Poylu qəsəbəsi ərazisində Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsi üzrə tikinti dəhlizinin Kür çayı ilə kəsişməsində boru kəmərinin inşası üçün mikrotunelin tikintisini icra edəcək makinaya rəsmi ad vermə mərasimi keçirilmişdir. Tədbirdə Ağstafa rayonu İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsinin rəhbəri Qreym Məllou, Azərbaycanda Borukəmərləri üzrə menecer Culian Smiz, layihə üzrə "Saipem"-"Azfen" birgə müəssisəsinin nümayəndəsi Toğrul Ömərov və digərləri çıxış etmişlər. Tədbirdə həmçinin tikinti üzrə inşaat işçiləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon ictimayiətinin nümayəndələri, eləcə də makinanın adnın müəyyən edilməsi üçün keçirilmiş müvafiq müsabiqədə iştirak etmiş Poylu və Qıraq Kəsəmən kənd tam orta məktəblərinin şagirdləri və müəllimlər iştirak etmişdir. Çıxışlarda Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihəsinin ölkəmiz üçün mühüm əhəmiyyətindən geniş danışdılar.

"Akkord Tekstil" fabrikində aylıq 15000 ədəd köynək istehsal olunacaq

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırığına əsasən Ağstafa şəhərində inşa olunmuş "Akkord Tekstil" fabrikində aylıq 15000 ədəd köynək istehsal edən yeni istehsal sexi yaradılmışdır. Artıq "Akkord Tekstil" MMC- nin istehsal etdiyi köynəklər İtaliyanın "Elle Elle SRL" şirkəti vasitəsi ilə İtaliyaya, eləcə dəTürkiyənin bir çox firmalarına "Made in Azerbaijan" yazısı ilə ixrac edilir. Hazırda İtaliyan şirkətinin nümayəndələri aylıq 5000 ədəd köynək ixracına dair müqavilənin imzalanması üçün Ağstafa rayonundadırlar. Bu gün Ağstafa rayonu İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev müavinləri ilə birgə "Akkord Tekstil" fabrikində İtaliyan və Türkiyə nümayəndələri ilə görüşmüş, yeni avadanlıq və istehsal olunan məhsullarla yaxından tanış olmuşdur. "Akkord Tekstil" MMC yaxın günlərdə Rusiya, Çexiya və digər ölkələrə "Made in Azerbaijan" yarılığı ilə istehsal məhsullarını ixrac etməyi planlaşdırır.

"Ağstafa rayonunun 2016-cı ildə sosial-iqtisadi inkişafının yekunları və 2017-ci ildə qarşıda duran vəzifələr haqqında" rayon İcra hakimiyyəti başçısının hesabat yığıncağının

Q Ə R A R I

1. "Ağstafa rayonunun 2016-cı ildə sosial-iqtisadi inkişafının yekunları və 2017-ci ildə qarşıda duran vəzifələr barədə" rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyevin məruzəsi nəzərə alınsın.

2. Hesabat ilində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramının icrası ilə əlaqədar olaraq rayonda yeni sosial obyektlərin tikintisi, infrastrukturun yenilənməsi, abadlıq-quruculuq və tikinti işlərinin aparılması, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun artırılması və yeni iş yerlərinin yaradılması, rayon əhalisinin sosial müdafiəsi və yaşayış səviyyəsinin yüksəldilməsi sahəsində əməli işlərin görülməsi qeyd edilsin.

3. Hesabat ilində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramına uyğun olaraq rayonda təhsilin infrastrukturunun yenilənməsi, səhiyyə və mədəniyyət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və həmin sahələrin inkişafı istiqamətində zəruri işlərin görüldüyü qeyd olunsun.

4. Rayonun sosial infrastrukturunun xüsusilə, elektrik enerjisi və təbii qaz yanacağı ilə təchizatın yaxşılaşdırılması, içməli su və kanalizasiya sisteminin, kənd və kəndarası yolların tikintisi və inkişafı istiqamətində əməli tədbirlərin görüldüyü qeyd edilsin və həyata keçirilən tədbirlərin davam etdirilməsi zəruri hesab edilsin. Ağstafa rayonunun kəndlərinin qazlaşdırılması istiqamətində əldə olunan nəticələr qeyd edilməklə bu sahədə işlərin daha da sürətləndirilməsi təmin edilsin. Rayonun Kür çayının sol sahilində yerləşən kəndlərinin ilin birinci rübü ərzində qazlaşmasının başa çatdırılması təmin edilsin.

5. Hesabat ilində Ağstafa şəhərinin abadlaşdırılması, tikinti-quruculuq və yenidənqurma işlərinin aparılması sahəsində görülən işlər qeyd edilməklə, cari ildə şəhərdə abadlıq, təmir-tikinti işlərinin aparılmasının tikinti norma və qaydalarına uyğun, estetik baxımlı və memarlıq üslubuna uyğun təşkilinə və qanunsuz tikintilərin qarşısının alınmasına diqqət artırılsın və rayonda tikinti-quruculuq və abadlıq sahəsində işlərin davam etdirilməsi təmin edilsin.

6. Rayonda əhalinin məşğulluğunun artırılması, sahibkarlığın inkişafı, yeni istehsalat, emal və xidmət sahələrinin təşkili, yeni iş yerlərinin yaradılması sahəsində hesabat ilində əməli işlərin görüldüyü qeyd edilsin və bu istiqamətdə tədbirlərin sürətləndirilməsi zəruri hesab olunsun. Yerli istehsalat, emal və xidmət sahələrinin bərpası istiqamətində təşkilati işlərin görülməsi sürətləndirilsin, yerli və xarici iş adamlarının cəlb edilməsi yolu ilə ənənəvi istehsalat sahələrinin müasir texnologiyaların tətbiq edilməsi ilə bərpası və təbii ehtiyatlardan səmərəli istifadə olunması təmin edilsin.

7. Sahibkarlığın və aqrar bölmədə özəl qurumların inkişafına kömək göstərilməsi sahəsində işlərin artırılması təmin edilsin, Sahibkarlığa Kömək Milli Fondunun, qeyri bank kredit təşkilatlarının imkanlarından daha səmərəli istifadə olunması üçün maarifləndirmə işlərinin aparılması təmin edilsin.

8. Aztəminatlı ailələrin sosial müdafiəsinin təşkili, əmək pensiyalarının, sosial müavinətlərin təyini və ödənilməsi sahəsində şəffaflığı təmin edən tədbirlərin davam etdirilməsi zəruri sayılsın.

8. Rayonda kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən dövlət dəstəyi proqramının uğurla həyata keçirilməsi, torpaq mülkiyyətçilərinin hüquqlarının təmin olunması istiqamətində əməli işlərin aparıldığı qeyd olunsun. Aqrar bölmənin inkişafına təsir edən tədarük və emal sahələrinin bərpası və yenilərinin yaradılması, eləcə də məhsulun saxlanması üçün soyuducu anbar komplekslərinin təşkili istiqamətində tədbir görülməsinə, baytarlıq, bitki mühafizəsi və aqroservis xidmətinin, torpaqlardan istifadə və suvarmanın təşkilinin yaxşılaşdırılmasına diqqət artırılsın.

9. Son illər ərzində rayonda müasir yeni məktəb binalarının tikilməsi, rayon məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi sahəsində əməli işlərin görüldüyü qeyd edilsin. Orta məktəblərdə, məktəbdənkənar müəssisələrdə təlim tərbiyə və tədris prosesinin səviyyəsinin artırılması, əmək intizamı, dərsə davamiyyət məsələlərinə ciddi yanaşma təmin edilsin, pedaqoji kadrların yerləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və istilik təchizatı işinə nəzarət olunması təhsil şöbəsinin yeni rəhbərliyindən tələb edilsin.

10. Səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibbi avadanlıq və texnika ilə təmin olunması sahəsində yeniliklərin olması qeyd edilsin. Fizioterapiya və bərpa mərkəzinin istifadəyə verilməsi, doğum şöbəsinin əsaslı təmir işlərinin aparılması kimi rayon əhalisinə göstərilən səhiyyə xidmətinin səviyyəsinin daha da yüksəldilməsi tədbirlərinin davam etdirilməsi Rayon Mərkəzi Xəstəxanasının baş həkimi İlham Mustafayevdən tələb olunsun.

11. Rayonda mədəni-kütləvi tədbirlərin təşkilinin səviyyəsinin artması qeyd olunsun, kənd və qəsəbələrdə klub, mədəniyyət evi və kitabxana müəssisələrinin bina şəraitinin yaxşılaşdırılması və turizmin inkişafı sahəsində rayonda əlavə tədbirlərin davam etdirilməsi zəruri hesab edilsin. Rayonunda mədəniyyət və turizm sahəsində, eləcə də kənd və qəsəbələrdə mədəniyyət müəssisələrinin işinin gücləndirməsi istiqamətində tədbirlər görülsün.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 iyun 2014-cü il tarixli Sərəncamına uyğun olaraq Ağstafa Musiqi və İncəsənət Mərkəzinin tikinti işlərinin və Ağstafa mədəniyyət evinin əsaslı təmirinin başa çatdırılması qeyd edilsin.

12. Yeniyetmə və gənclər arasında olimpiya-idman hərəkatının, idmanın kütləviliyinin artmasının təmin olunması, fiziki bədən tərbiyəsi və idmana meylliliyin artırılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili, idmanın müxtəlif növlərini əhatə edən klubların və əyləncə mərkəzlərinin yaradılması, mədəni irsə, milli mənəvi dəyərlərə hörmət və vətənpərvərlik tərbiyəsi sahəsində işlərin daha da gücləndirilməsi rayon Gənclər və İdman idarəsinin rəisi Feyruz Həsənovdan tələb olunsun.

13. Rayon İcra Hakimiyyəti başçısının şəhər, qəsəbə və kənd ərazi nümayəndəliklərinin və bələdiyyələrin fəaliyyətinin yaxşılaşdırılması, onların güclərinin yerlərdə sosial-iqtisadi problemlərin həllinə yönəldilməsi üçün tədbirlər görülsün. Aztəminatlı və yoxsul ailələrin sosial müdafiəsi, yerlərdə sosial inkişaf proqramlarının icrası istiqamətində bələdiyyələrlə əlaqəli işin gücləndirilməsi zəruri hesab edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, tövsiyə və təkliflərinin, mərkəzi icra hakimiyyəti orqanlarının qərarlarının vaxtında və tam icrasının təmin olunması, icra intizamının möhkəmləndirilməsinin və icraya nəzarətin təşkili, dövlət idarəçilik prinsiplərinin tətbiq olunmasının təmin olunması rayon icra hakimiyyəti başçısı aparatının şöbə müdirlərindən, idarə, müəssisə və təşkilat rəhbərlərindən tələb olunsun.

15. Qərarın icrasına nəzarət rayon icra hakimiyyəti başçısının üzərində saxlanılsın.

16. Qərar "Ağstafa" qəzetində dərc olunsun.

Xocalı faciəsinin 25 illiyi

Rus işğalçı ordusunun 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı törədilən qanlı cinayətdən az sonra-1992-ci il fevralın 26-da erməni quldurlarının Xocavənd şəhərində həyata keçirdikləri soyqırım aktları bütün tərəqqipərvər bəşəriyyət tərəfindən insanlığa qarşı ağlasığmaz vəhşilik kimi qiymətləndirmişdir. Artıq bu qanlı faciədən 25 il keçir. Bu müddətdə hər il fevralın axırlarında Xocalı faciəsi qurbanlarının xatirəsi ehtiramla yad edilir, erməni və rus qaniçənlərinin bu vəhşiliyinə lənətlər yağdırılır.

Bu il də müstəqil respublikamızın hər yerində Xocalı faciəsinin ildönümü ümumxalq matəmi kimi qeyd olunur. "Xocalı faciəsinin iyirmi beşinci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 yanvar tarixli sərəncamına uyğun olaraq respublikamızda silsilə tədbirlər həyata keçirmək nəzərdə tutulmuşdur. Bu tədbirlər erməni hərbçilərinin və terror-quldur birləşmələri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş ağır cinayət əməllərinin ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində bir neçə gün davam edəcəkdir.

Respublika Prezidentinin sərəncamı ilə əlaqədar rayonumuzda da Xocalı faciəsinin 25 illiyi ilə bağlı tədbirlər planı hazırlanıb təsdiq edilmişdir. Həmin plana uyğun olaraq rayonumuzun idarə və müəssisələrində, mədəniyyət, təhsil və səhiyyə ocaqlarında Xocalı faciəsinə həsr olunmuş anım mərasimləri keçirilir. Mərasimlərdə bu qanlı faciənin qurbanları ehtiramla yad olunur, Xocalı soyqırımının mahiyyəti, erməni hərbçilərinin vəhşi əməlləri barədə söhbətlər aparılır, şəhidlərimizə, vətən torpağı uğrunda canından keçən soydaşlarımıza həsr edilən bədii qiraətlər səslənir, səhnəciklər və dialoqlar ifa olunur.

Xocalı faciəsinin 25 illiyinə həsr olunan müxtəlif tədbirlər fevralın 26-da başa çatacaqdır.

Yetkinlik yaşına çatmayanlarla aparılan iş gücləndirilir, onların hüquqları müdafiə olunur

Bu gün dövlətimizin qarşısında duran ən mühüm məsələlərdən biri də Yetkinlik Yaşına Çatmayanlarla aparılan işin gücləndirilməsini, onların hüquqlarının qorunmasını, nəzarətsiz yeniyetmələrin aşkarlanmasını təmin etməkdən, onların bu və ya digər xoşagəlməz hallara meyl göstərməsinin qarşısını almaqdan ibarətdəir. Ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Görülən işlərə aydınlıq gətirmək, yeniyetmə yaşına çatmayanlarla aparılan iş barədə danışmaq üçün Rayon icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Lalə Eyyubovaya müraciət etdik və ondan müsahibə verməyi xahiş etdik.

L. Eyyubova suallarımızı cavablandıraraq bildirdi ki, Rayon icra hakimiyyətinin müvafiq şöbəsində təkcə yeniyetmələrlə deyil, eləcə də gələcəyimiz olan bütün gənclərlə aparılan işləri möhtərəm prezidentimiz cənab İlham Əliyevin bu istiqamətdə imzaladığı sərəncamlara, göstərişlərə və tapşırıqlara uyğun şəkildə qurmaq üçün ardıcıl tədbirlər hazırlaylb həyata keçiririk.

Böyük iftixarla deyə bilərəm ki, bu istiqamətdə 2016-cı ildə xeyli iş görmüş, tədbirlər həyata keçirmiş və həmin tədbirləri bu gün də davam etdiririk.

2016-cı ildə Rayon icra hakimiyyəti başçısı aparatı yanında fəaliyyət göstərən Yetkinlik Yaşına Çatmayanların işləri və onların hüquqlarının müdafiəsi üzrə komissiya yaradılmış və bu komissiyanın hazırladığı tədbirlər planı şura iclasında təsdiq edilmişdir. Bundan əlavə, Rayon icra hakimiyyəti başçısı "Ağstafa rayonu orta ümumtəhsil müəssisələrində 9-11-ci sinif şagirdləri arasında dini radikalizm, erkən nikahlar, insan alveri, narkomaniya və zərərli maddələrə qarşı aparılacaq seminar müşavirələrin təsdiqi barədə" sərəncam imzalamış və bu sərəncama, tədbirlər planına uyğun olaraq konkret işlər görülür.

Qeyd etmək istərdim ki, yetkinlik yaşına çatmayan gənclərlə aparılan işlərdə Rayon polis şöbəsinin, Rayon təhsil şöbəsinin, Gənclər və İdman idarəsinin əməkdaşları da yaxından iştirak edirlər. Son iki ayda rayonun ümumtəhsil məktəblərində keçirdiyimiz tədbirlər onu göstərir ki, ümumtəhsil məktəblərində təhsil alan bəzi gənclərlə mütəmadi olaraq söhbət aparılmalı, onların ekstremist yönümlü dini təriqətlərə meyl göstərməmələri üçün onların valideynləri ilə söhbət aparılmalıdır. Ötən müddətdə demək olar ki, biz məqsədimizə nail olmuş, rayonun şəhər, qəsəbə, kənd məktəblərində bu istiqamətdə on iki dəfə görüşlər keçirmiş, yetkinlik yaşına çatmayanlarla söhbətlər aparmış, bununla əlaqədar məktəb rəhblərlərinə müvafiq tapşırıqlar vermişik.

Görüşlər zamanı bəzən elə hallara da təsadüf etmişik ki, müəyyən yeniyetmə yaşına çatmayan uşaqlar dərsdən yayınır, qanunsuz olaraq yaşlarına uyğun olmayan əməyə cəlb olunurlar. Xüsusilə belə hallara bazarlarda, avtotəmir sexlərində, ictimai-iaşə obyektlərində təsadüf olunur. Bütün bunlara görə məlum məsələdir ki, belə uşaqların valideynləri, təhsil aldıqları məktəblərin pedaqoji işçiləri ciddi məsulliyyət daşıyırlar. Bu kimi vəziyyət müşahidə olunanda onların təhsil aldıqları məktəblərin pedaqoji kollektivləri ilə söhbətlər aparır və belə xoşagəlməz hallara görə onların ciddi məsuliyyət daşıdıqları nəzərlərinə çatdırılır.

Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın həyata keçirdiyi tədbirlər sözsüz ki, öz müsbət nəticəsini verir və bu kimi tədbirləri mütəmadi olaraq davam etdirir, nöqsan və çatışmazlıqları aradan qaldırırıq.

Ümumiyyətlə, Rayon icra hakimiyyətində hazırlanan tədbirlər planında nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün idarə, müəssisə və təşkilatların rəhbərləri ilə də sıx əlaqə saxlayır, onlara öz məsləhətlərimizi çatdırır və yeniyetmə yaşına çatmayanların təlim-tərbiyəsi işinin daha yaxşı təşkil olunması üçün bütün imkanlardan istifadə olunmasını tələb edirik .

Mən deyərdim ki, bu gün Ağstafa rayonu yeniyetmə yaşına çatmayanlarla aparılan işi yüksək səviyyədə təşkil edən rayonlardan biridir. Biz 2017-ci ildə də bu məqsədyönlü işi uğurla davam etdirəcək, qarşıya qoyulmuş bütün vəzifələrin həyata keçirilməsi üçün əlimizdən gələni edəcəyik.

İ.Əliyev

Yeni təyinatlar

Leyla Məmməd qızı İsayeva

Leyla Məmməd qızı İsayeva Rayon icra hakimiyyətində informasiya təminatı və təhlil sektorunun müdiri vəzifəsinə təyin edilmişdir.

L. İsayeva 1974-cü ildə Ağstafa şəhərində anadan olmuş, orta məktəbi bitirdikdən sonra M.F.Axundov adına Azərbaycan Pedaqoji rus-dili və ədəbiyyatı institutuna daxil olmuşdur. O, həmin institutu bitirdikdən sonra Azərbaycan Müəllimlər İnstitutunun yenidən hazırlanma təhsilində oxumuş, tarix müəllimi ixtisasına yiyələnmişdir. O, əmək fəaliyyətinə başladıqdan sonra Bakı şəhərində Üzeyir Hacıbəyovun ev muzeyində, Ağstafa rayonunun Köhnə Qışlaq kənd orta məktəbində, Vurğun qəsəbə orta məktəbində müəllim işləmişdir.

L. İsayevaya sonralar yüksək etimad göstərilmiş, Ağstafa şəhər 1 saylı orta məktəbində direktor vəzifəsinə və 2015-ci ildə isə Rayon təhsil şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir. 2017-ci ilin fevral ayında ona yenidən etimad göstərilmiş və Rayon icra hakimiyyəti başçısının 02 fevral tarixli sərəncamı ilə Rayon icra hakimiyyətində informasiya təminatı və təhlil sektorunun müdiri təyin edilmişdir.

Kamran Yahya oğlu Abbasov

Kamran Yahya oğlu Abbasov 1963-cü ildə Ağstafa şəhərində anadan olmuş, Ağstafa şəhərində S.Şükürova adına 24 saylı dəmiryol orta məktəbində orta təhsil aldıqdan sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş və 1986-cı ildə həmin institutu müvəffəqiyyətlə bitirərək tarixçi, tarix və ictimaiyyət müəllimi ixtisası almışdır.

K. Abbasov 1986-cı ildə təyinatla Ağdaş rayonunda ixtisası üzrə müəllim işləmiş və 1989-1991-ci illərdə əmək fəaliyyətini Ağstafa şəhərindəki toxuculuq fabrikində hüquq məsləhətçisi kimi davam etdirmişdir. K. Abbasov 1991-ci ildə Ağstafa rayon Partiya Komitəsində texniki katib vəzifəsinə irəli çəkilmiş, bir müddət rayon məşğulluq mərkəzində işləmiş və 1991-ci ilin dekabr ayından 2017-ci ilin fevral ayına qədər Rayon icra hakimiyyətində bir sıra məsul vəzifələrdə, Rayon icra hakimiyyətində informasiya təminatı və təhlil sektorunun müdiri vəzifəsində çalışmışdır.

K. Abbasov 02 fevral 2017-ci ildə Rayon təhsil şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir.

Etibar Cəfər oğlu Hacıyev

Etibar Cəfər oğlu Hacıyev Rayon icra hakimiyyəti başçısının əmri ilə Ağstafa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə vəzifəsinə təyin olunmuşdur.

Etibar Hacıyev 1972-ci ildə Ağstafa şəhərində anadan olmuş, Poylu kəndində orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət İqtisad İnstitutunda təhsil almış və iqtisadçı ixtisasına yiyələnmişdir. O, 1995-ci ildən 1996-cı ilə qədər Ağstafa rayon Gənclər və İdman İdarəsində aparıcı-təlimatçı işləmiş və 1996-cı ildən 2017-ci ilə qədər Rayon icra hakimiyyətində baş məsləhətçi vəzifəsində çalışmışdır. O, Rayon icra hakimiyyəti başçısının 01 fevral 2017-ci il tarixli əmri ilə Ağstafa şəhər icra nümayəndəsi vəzifəsinə təyin edilmişdir.

Təhsilyanı şura iclasında

Rayon təhsil şöbəsində təhsilyanı şuranın növbəti iclası keçirilmişdir. Şura iclasında rayonun ümumtəhsil məktəblərində 9,11-ci sinif şagirdlərinin dərs məşğələlərinə davamiyyəti, Dağkəsəmən kənd 1 saylı və Qaçaq Kərəm kənd tam orta məktəblərində aparılmış yoxlamaların nəticələri barədə məsələ müzakirə edilmişdir. Hər iki məsələ geniş müzakirə olunduqdan sonra müvafiq qərar qəbul olunmuş və həmin qərarların icrası şöbənin məsul işçilərinə həvalə edilmişdir.

Şura iclasında həmçinin Rayon təhsil şöbəsi yanında təhsilyanı şuranın tərkibində dəyişikliklər edilməsi barədə məsələyə baxılmışdır.

Şura iclasında rayon Təhsil şöbəsinin müdiri Kamran Abbasov çıxış etmiş, müzakirə edilən məsələlərə öz münasibətini bildirmişdi.

Unutsaq unudularıq...

Həyatda iz qoyan insan

Həyatda heçnə əbədi deyil. Yaranan bir gün yox olacaq, bu dünyaya gələnlər bir gün əbədiyyətə köçəcəkdir. Xoşbəxt o insandır ki, bu dünyadan köç edəndə həyatda bir iz qoyub gedir. Belə insanlardan biri də ixtisasca həkim olan, insanların sağlamlığı keşiyində sayıq dayanan Zahid Xəlilov olmuşdur.

Zahid Hüseyn oğlu Xəlilov 1917-ci il fevralın 28-də rayonumuzun Poylu kəndində dünyaya gəlmişdir. El arasında "Uçtel Hüseyn" kimi tanınan atası Hüseyn Xəlilov Qori seminariyasının Qazax şöbəsində təhsil almış, rayonumuzda rus dilini tədris edən ilk ziyalılardan biri olmuşdur.

Orta məktəbi yaxşı qiymətlərlə bitirən Zahid Xəlilov 1936-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. Ancaq həkim diplomu ilə ağ xalat geyinib el-obasına xidmət etmək ona nəsib olmadı. 1941-ci ildə institutu bitirən kimi müharibə başladı, bir neçə nəfər gənc həkimlə Zahid də Ukrayna cəbhəsinə göndərildi. Odlu-alovlu cəbhələrdə həm əsgər kimi faşistlərə qarşı döyüşdü, həm də həkim kimi yaralıların müalicəsi ilə məşğul oldu.

Ağrılı-acılı müharibə illəri Zahid Xəlilovun ailəsinə də çəkilməz dərdlər vermişdi. Müharibə başlayanda yenicə evləndiyi həyat yoldaşı Zəkiyyə müəllimə dava qurtarana kimi sonsuz həsrətlə onun yolunu gözləməli oldu. Çox uzun çəkdi bu həsrət. Hərbi həkim kimi Zahid Xəlilov üç-dörd ildən sonra qayıtdı doğma vətənə. Müharibə qurtarandan sonra o, Saratovda, Moskvada, həmçinin Azərbaycanın bir neçə bölgəsində hərbi qospitallarda cəbhədə ağır yaralanmış döyüşçülərin müalicəsi ilə məşğul oldu. Bu xidmətlərinə görə hərbi həkim kimi Zahid Xəlilov Müdafiə Nazirliyi tərəfindən döyüş medalları və mükafatları ilə təltif olunmuş, podpolkovnik rütbəsinə layiq görülmüşdür.

Doğma rayona qayıtdıqdan sonra Zahid Xəlilov Poylu kənd və Ağstafa şəhər xəstəxanasında həkim işləmişdir. Ömrünün ahıl yaşlarında isə Ağstafa şəhər xəstəxanasında rentgenoloq vəzifəsində çalışmışdır. Buna baxmayaraq lazım gələndə o, terapevt kimi də xəstələrə məsləhət verir, dəyərli tövsiyələr edirdi. Demək olar ki, Zahid Xəlilov həkimlik peşəsinin bütün sahələrindən xəbərdar idi, xəstəliklərin hamısından məlumatı var idi. Bu qabiliyyət onda hərbi həkimlik təcrübəsindən miras qalmışdı.

İnsanların can sağlığının keşiyində dayanmağı həmişə özünə şərəf bilən qayğıkeş həkim Zahid Xəlilov müalicə etdiyi xəstələrin yanında da, rayon ictimaiyyəti arasında da, bütün tibb işçiləri sırasında da xüsusi hörmətə,böyük nüfuza malik idi. Ağstafada hər yerdə onu hörmətli ağsaqqal, xeyirxah məsləhətçi, sayılan bir təbib kimi tanıyırdılar. Ləyaqətli bir ailə başçısı kimi də həkimin dost-tanışı arasında, qohum-əqrəbası içində, el-obada xüsusi hörməti vardı. Zahid həkim həyat yoldaşı Zəkiyyə müəllimə ilə birlikdə üç oğul, üç qız böyütmüşdür. Hamısını da oxudub, ev-eşik, ailə sahibi etmişlər. Bu ləyaqətli ailənin qızları Kəmalə, Rəna və Mehriban müəllimdirlər. Oğlu Kamal mühəndis, atasının adını daşıyan Hüseyn isə həkimdir.

Həyatda el-obaya yararlı bir insan kimi ömür sürmüş Zahid Xəlilov 1979-cu ildə Ağstafa şəhərində vəfat etmişdir. Yaşasaydı bu günlərdə ailəsi, övladları, nəvə-nəticələri ilə birlikdə 100 yaşını qeyd edəcək. Təəssüf ki, həkimsiz qeyd edirik bu yubileyi. Bu yerdə dahi Səməd Vurğunun məşhur bir beyti yada düşdü:

Ölüm sevinməsin qoy, ömrünü vermir bada,
El qədrini canından daha əziz bilənlər,
Şirin bir xatirətək qalacaqdır dünyada ,
Sevərək yaşayanlar, sevilərək ölənlər...

Zahid Xəlilov onu tanıyanların, həkim kimi sevənlərin qəlbində hər zaman yaşayacaqdır.

Firdovsi Heydərli,
Rayon Ağsaqqallar Şurasının sədri.



Heyvandarlığın inkişafına göstərilən diqqət və qayğı öz müsbət nəticəsini verir

Son illər ölkə başçısı möhtərəm prezidentimiz cənab İlham Əliyevin kənd təsərrüfatının inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğı öz müsbət nəticəsini açıq-aydın göstərməkdədir. Əhalinin ərzaq məhsulları ilə təminatında heyvandarlığın mühüm əhəmiyyət kəsb etməsi yaxşı məlumdur. Açıq etiraf olunmalıdır ki, rayonun iqtisadiyyatlnda xüsusi yer tutan heyandarlığın inkişaf etdirilməsi üçün rayonumuzda hər cür imkan və şərait vardır. Aparılmış təhlil göstərir ki, bu sahədə çalışanlar əsasən yerli imkanlardan istifadə edir, heyvandarlıq məhsulları istehsalının artırılması üçün əllərindən gələni edirlər. Rayon statistika idarəsinə verilən məlumatlar bütün bunları açıq-aydın əks etdirir.

Belə ki, 2016-cı ilin yanvar-dekabr aylarında bütün təsərrüfat kateqoriyalarında 26360 baş iri buynuzlu mal-qara, o. cümlədən 11840 baş inək və camış, 170628 baş qoyun-keçilər, 311105 baş quşlar, 1550 baş atlar, 2807 arı ailəsi və 293 baş ev dovşanları mövcud olmuşdur. Keçən ilin müvafiq dövrünə nisbətən iri buynuzlu mal-qaranın sayı 116 baş və ya 0.4 faiz, inək və camışların sayı 44 baş və ya 0.4 faiz, qoyun və keçilər 466 baş və ya 0.3 faiz, quşlar 2539 baş və ya 0.8 faiz, atlar 12 baş və ya 0.8 faiz, arı ailəsi 175 və ya 0.6 faiz və ev dovşanları 19 və ya 6.9 faiz artmışdır. Bu artım fərdi təsərrüfatların hesabına olmuşdur.

İri buynuzlu mal-qaranın artımı rayonun Pirli, Xılxına, Düzqışlaq, Göycəli, Tatlı, Qarahəsənli, Saloğlu, Qarayazı, Qırlı, Köçəsgər, Sadıxlı, Köcvəlili, Muğanlı, Dağ Kəsəmən kəndlərində daha çox olmuşdur. Bu kənd ərazi dairələrində iri buynuzlu mal-qaranın sayı 787-2120 baş olmaqla, rayonda mövcud olan iri buynuzlu mal-qaranın 18496 baş və ya 70.2 faizini təşkil edir.

Rayonda qoyun və keçilərin sayının artımı ən çox hissəsi Dağ Kəsəmən, Köcəsgər, Muğanlı, Sadıxlı, Qırlı, Poylu, Xətai, Aşağı Kəsəmən, Göycəli kənd ərazi dairələrində olmuşdur. Belə ki, rayonda mövcud olan qoyun və keçilərin 98626 başı, yəni 58.6 faizi məhz bu kəndlərdə qeyde alınmışdır.

Rayonda mövcud olan iri buynuzlu mal-qaranın 26336 başı və ya 99.9 faizi əhalinin fərdi təsərrüfatının hesabına olmuşdur.

İri buynuzlu mal-qaranın baş sayının artımı sözsüz ki, heyvandarlıq məhsulların istehsalının həcminin artmasına öz müsbət təsirini göstərmişdir. Belə ki, 2016-cı ilin yanvar - dekabr aylarında diri çəkidə ət istehsalı 4169 ton, süd istehsalı 16985 ton, yun istehsalı 324, yumurta istehsalı 9548 min ədəd olmaqla, onların həcmi keçən ilin müvafiq dövrünə nisbətən ət üzrə 111 ton (2.7 faiz), süd üzrə 342 ton (2.1 faiz), yumurta üzrə 268 min ədəd (2.9 faiz) artmışdır.

Qeyd olunan göstəricilər onu deməyə əsas verir ki, heyvandarllıqla məşğul olan kənd əməkçiləri əldə etdikləri müvəffəqiyyətlərdən ruhlanacaq və 2017-ci ildə də sevindirici nəticələr əldə edəcəklər.

Kənan İbrahimov,
Rayon Statistika İdarəsinin rəisi

Folklor klubunda növbəti tədbir

Hamının "Aşıqlar evi" kimi tanıdığı Ağstafa şəhər klubunda yeni bir mədəniyyət müəssisəsi yaradılmışdır. Bundan sonra şəhər klubu "Folklor klubu" kimi fəaliyyət göstərəcəkdir. Bu günlər həmin klubda ilk tədbir keçirilmişdir. Klubda qarşıdan gələn Novruz bayramına hazırlıqla əlaqədar aşıq musiqisi həvəskarlarının iştirakı ilə "saz-söz axşamı" keçirilmişdir.

Maraqlı tədbirdə Qazax, Tovuz və Ağstafa aşıqlarının nümayəndələri, bu sənətə yeni yiyələnməyə başlayan uşaq və yeniyetmələr iştirak etmişlər. Kluba toplaşan aşıq musiqisi pərəstişkarları peşəkar aşıqların ifasında müxtəlif mahnıları, qədim və müasir saz havalarını alqışlarla qarşılamışlar. Gənc aşıqların çıxışları da hərarətlə qarşılanmış, maraqla dinlənilmişdir.

Əsl saz-söz bayramına çevrilən tədbirin sonunda yeni ilin əvvəlində yaradılmış regional mədəniyyət və turizm idarəsinin rəhbəri Ramiz Quliyev maraqlı saz və söz axşamı tədbirində iştirak edən bütün aşıqlara, saz-söz həvəskarlarına təşəkkürünü bildirmiş, onlara fəaliyyətlərində uğurlar arzulamışdır.

Vergi ödəyicilərinin nəzərinə!

2016-cı hesabat ilinin yekunlarına görə

- Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin bəyənnaməsini;
- Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət bəyənnaməsini;
- Əmlak vergisinin ödəyiciləri olan müəssisələr əmlak mənfəət bəyənnaməsini;

cari ilin **mart ayının 31-dən gec olmayaraq** vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

Əlavə məlumat üçün "195-1" Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Vergilər Nazirliyi

ELANLAR

2017-2018-ci tədris ilində DİN-in Polis Akademiyasında təhsil almaq üçün namizədlərin seçiminin təşkilinə dair Ağstafa rayon polis şöbəsində DİN-in Polis Akademiyasına əyani təhsil üzrə namizədlərin sənədlərinin qəbulu elanı

DİN-in Polis Akademiyasında təhsil almaq arzusu olan tam orta təhsil məktəblərinin buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, boyu azı 165 sm (qızlar üçün 160 sm) olan, 16 yaşdan 18-yaşadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) mülki gənclər arasından namizədlərin müvafiq forma üzrə ərizələrinin Ağstafa rayon polis şöbəsində qəbulu 2017-ci ilin fevral ayının 1-dən mart ayının 10-dək həyata keçirilir

Namizədlər aşağıdakı sənədləri ərazi polis orqanlarına təqdim etməlidirlər.

- şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə (əsli notariat qaydada təsdiq olunmuş surəti)
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat)
-yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olması üçün sağlamlıq haqqında arayış
-İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (notariusda təsdiq olunmuş surəti)
- Oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə.
- 9x12 sm ölçüdə 2 ədəd 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız rəngli donuq kağızda)

DİN-in Polis Akademiyasına qəbulla bağlı əlavə məlumat almaq üçün Ağstafa RPŞ-nin Kadrlar Qrupuna müraciət edə bilərsiniz.

Tel: növbətçi hissə: 022 225 35 05

* * *

Azərbaycan Respublikasının Daxili İşlər Orqanlarında vakant vəzifələrin komplektləşdirilməsi üçün orta rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası almış, silahlı qüvvələrdə həqiqi hərbi xidmətini tam başa vurmuş (kişilər üçün) yaşı 28-dən yuxarı olmayan, özü və yaxın qohumları məhkum olunmamış, DİO-da "Xidmət keçmə haqqında əsasnama"də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikası vətəndaşı iştirak edə bilər.

Müsabiqədə aşağıdakı sənədlər təqdim edilməlidir.

- şəxsiyyət vəsiqəsi
- Ali təhsil haqqında diplom
- hərbi bilet (kişilər üçün)
- əmək kitabçası (olanlar üçün)

Daxili İşlər Orqanlarında orta rəis heyəti üzrə vakant vəzifələrin komplektləşdirilməsi üçün müsabiqə üçün 2017-ci ilin fevral ayının 03-dən mart ayının 03-dək sənədlərin qəbulu həyata keçirilir.

Əlavə məlumat almaq üçün Ağstafa RPŞ-nin Qrupuna müraciət edə bilərsiniz.

TEL: növbətçi hissə 022 225 35 05

Etibarsız sayılır

Dağ Kəsəmən kənd sakini mərhum Ərəbov Mahmud Bahadur oğlunun adına olan pay torpağının mülkiyyətə verilməsinə dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Həsənsu kənd sakini mərhum Kazımov Vidadi Oruc oğlunun adına verilmiş JN-0096 nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Eynallı kənd sakini Məmmədov Mütalib Məmməd oğlunun adına verilmiş JN-185 nömrəli (kod 50200038) Torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Yuxarı Göycəli kənd sakini Hacıyev Arif Fərman oğlunun adına olan JN-455 nömrəli (kod 50200018) Torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Həsənsu kənd sakini mərhum Musayev Hümbət Xəlil oğlunun adına verilmiş JN-640 nömrəli (kod 50202028) Torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Köçəsgər kənd sakini Qasımov Qədim Əhmədqulu oğlunun adına verilmiş 164 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Allah rəhmət eləsin!

Nakir Quliyev ailə üzvləri ilə birlikdə Baki şəhərində yaşayan yaxın qohumu Sevil Quliyevaya, bacısı

Zenfira xanımın

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, L.İsayeva, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000